**Xəzinədarlıq departamenti - Baş mütəxəssis**

**Tələblər:**

- Ali iqtisadi təhsil
- İngilis və Rus dil bilgiləri
- Xəzinədarlıq sahəsi üzrə minimum 2 illik iş təcrübəsi
- Excel proqramı üzrə yüksək səviyyədə biliklər

**İş haqqında məlumatlar:**

1. Departamentin fəaliyyətinə aid gündəlik bank proqramı üzərindən əməliyyatları icra etmək;
2. Departamentin fəaliyyətinə aid digər struktur bölmələri tərəfindən həyata keçirilən əməliyyatların düzgün icra edilməsinə nəzarət etmək;
3. Departamentə aid əməliyyatlar üzrə ödənişlərin SWIFT proqramına daxil edilməsini və müvafiq səlahiyyətli şəxslər tərəfindən icra edilməsini təmin etmək;
4. Filiallarda baş verən bütün növ problemləri səlahiyyətlər çərçivəsində aradan qaldırmaq;
5. Gündəlik olaraq bankdaxili nağd və qeyri-nağd valyuta məzənnələrini hazırlamaq və təsdiq üçün əlaqədar səlahiyyətli şəxslərə təqdim etmək, eyni zamanda lazımi hallarda valyuta məzənnələrinin yenidən müəyyən edilməsini və həmin məzənnələrin müvafiq struktur bölmələrinə çatdırılmasını və bu məzənnələrin bank proqramına daxil edilməsini təmin etmək;
6. Bankın Valyuta mövqeyi və müştərilərin valyuta əməliyyatları üzrə tələbləri nəzərə alınaraq verilmiş səlahiyyətlər çərçivəsində Bankın adından daxili və xarici valyuta bazarlarında dilinq əməliyyatlarını həyata keçirmək;
7. Yerli və xarici banklar, habelə digər maliyyə kredit təşkilatlarından banka uyğun şərtlərlə kredit alınması və maliyyə resurslarının cəlb olunması, cəlb olunmuş resursların vaxtında qaytarılması ilə əlaqədar lazımi işləri həyata keçirmək;
8. Müştərilərdən cəlb edilmiş depozitlərin nəzarətdə saxlanılması və bu vəsaitlərin idarə olunması;
9. Banklararası bazarlarda və Bankın müştəriləri ilə derevativ alətlərlə əməliyyatların aparılması;

**Əlavə məlumat:**

- Tələblərə cavab verdiyiniz təqdirdə CV-nizi cv@asb.az elektron poçtuna göndərə bilərsiniz.
  Email-in mövzu hissəsində **Xəzinədarlıq departamenti - Baş mütəxəssis** qeyd etməyiniz xahiş olunur.
  **İş yeri:** Bakı şəhəri